# Azərbaycan xalq mahnıları

## II CİLD

ÖNDƏR NƏŞRİYYAT
BAKI-2005

Tərtib edən: **Siyavuş Kərimi**
*Azərbaycan Respublikasının xalq artisti*

Redaktor: **Elnarə Dadaşova**
*bəstəkar*

**398.2'094754 - dc 21**
**AZE**
**Azərbaycan xalq mahnıları.** II cild. Bakı, "Öndər nəşriyyat", 2005, 128 səh.

Topluya Üzeyir Hacıbəyovun və Müslüm Maqomayevin "Azərbaycan türk el nəğmələri" (1927), Səid Rüstəmovun "Azərbaycan xalq melodiyaları" (1937) və Davud Məmmədbəyovun "Azərbaycan lirik xalq mahnıları" (1965) kitablarından götürülmüş xalq mahnıları daxil edilmişdir.

Topludakı mahnılar musiqisevərlərə, musiqi nəzəriyyəçilərinə, bəstəkarlara, xanəndələrə və ümumiyyətlə, Azərbaycan xalqına ünvanlanır.

**ISBN 9952-416-76-7**

© "ÖNDƏR NƏŞRİYYAT", 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# 1. TƏRLAN KİMİ




Tərlan kimi, tərlan kimi
Nə çəkmisən özünü?
Hey, hey, hey, hey,
Düzəltmisən nədəndi,
Qaş-gözünü?

Yar qaşının kamanını
Görüb dəli olmuşam.
Hey, hey, hey, hey,
Naz eylərsən nədən mənə,
Ay dilbər?

N ə q ə r a t:

Aman, ay qız, aman,
Aman, ay qız, aman.
Aman, nazlar, amandır.
Aman, nazlar, aman.
Aman, nazlar, amandır.
Aman, nazlar, aman.

# 2. NƏ DURMUSAN DAĞ BAŞINDA



Nə durmusan dağ başında qar kimi,
Bağçalarda heyva kimi, nar kimi.
Ay balam, ay gülüm,
Neynim, neynim, neynim, neynim.
Ay sarı telli,
Ay incə belli.
Dağlara gedərsən,
Boz atı minərsən,
Ay qadan alım,
Vay qadan alım,
Yar, cəfan alım.

# 3. MƏN GÜLÜ DƏSTƏ BAĞLARAM




Mən gülü dəstə bağlaram ay…
Dəstəbədəstə bağlaram ay…
Gah gülərəm, gah ağlaram ay… a zalım.
Gəl, gəl yanıma, ay xanım,
Dərdin canıma, ay xanım.

# 4. TELLİ




Çayda balıq yan gedər, Telli,
Açma yaram, qan gedər, Telli.
Yüz min təbib neyləsin, Telli,
Əcəl gələr, can gedər, Telli,
Telli, Telli.

Bağa girdim, gül dərdim, Telli,
Gülü yara göndərdim, Telli.
Aləm sənsiz dolansa, Telli,
Mən sənsiz dolanmaram, Telli,
Telli, Telli.

# 5. YARIMA BAX




Mənim öz yarıma bax, gör nə cəlal ilən gəlir,  
Özü ceyran balası, bir cüt maral ilən gəlir.  
Dad əlindən, ay gəlin,  
Fəryad əlindən, ay gəlin.  
Dad əlindən, ay gəlin,  
Fəryad əlindən, ay gəlin.  
Aşaram Gürcüstanı sənin əlindən, ay gəlin,  
Sənin əlindən, ay gəlin.

# 6. BULUD ZÜLFLÜ






Bulud zülflü, ay qabaqlı, gözəlin
Duruban başına dolanmaq gərək.
Bir evdə ki, sən tək gözəl olmaya,
Od düşübən o ev talanmaq gərək.

Sara xanım sarayından baxanda,
Ağ gərdənə həmayillər taxanda.
Qaşa sürmə, gözə vəsmə yaxanda
Ağzı, burnu, qaşı, gözü tən gərək.

N ə q ə r a t:

Qadanı mən alım,
Bəlanı mən alım, hey,
A tərlan, a ceyran,
Bəxtəvər mən ölləm.

# 7. MEYVƏLƏRDƏ ÜÇ MEYVƏ VAR




Meyvələrdə üç meyvə var, üçü də, balam, yeməli,  
Biri alma, biri armud, biri nar.  
Alma sənin, armud da sənin,  
Nar mənim, mənim, nar mənim,  
İndi bildim, sən mənimsən, mən sənin.

Bu yerlərin üç yolu var, üçü də, balam, getməli,  
Biri eniş, biri yoxuş, bir düz.  
Eniş sənin, yoxuş da sənin,  
Düz mənim, mənim, düz mənim,  
İndi bildim, sən mənimsən, mən sənin.

# 8. AMAN YAR




Nə baxırsan yanı-yanı,
Aman yar, aman yar.
Olum gözlərin qurbanı,
Aman yar, aman yar.
Əvvəlki məhəbbət hanı?
Dinim, imanım, gəl, gəl.
Qaşı kamanım, gəl, gəl.
Halı yamanım, gəl.

Gəlin gedək Daşaltına,
Aman yar, aman yar.
Yastıq qoyaq baş altına,
Aman yar, aman yar.
Sürmə çəkək qaş altına,
Dinim, imanım, gəl, gəl.
Qaşı kamanım, gəl, gəl.
Halı yamanım, gəl.

# 9. AMAN KƏKLİK ƏLİNDƏN




Haray getdi dəm əldən, balam,
Qoymaz məni qəm əldən.
Getsə, dünyalar getsin, balam,
Getməsin həmdəm əldən.

Qərənfiləm dəstəyəm, balam,
Bülbüləm qəfəsdəyəm.
Gedin yarıma deyin, balam,
Həsrətindən xəstəyəm.

N ə q ə r a t:

Aman kəklik əlindən, balam,
Bidad kəklik əlindən.
Baş götürüb gedərəm, balam,
Bivəfa yar əlindən.
Baş götürüb gedərəm, quzum,
Bivəfa yar əlindən.

# 10. O XAL NƏ XALDIR




– İrəvanda xal qalmadı,
O xal nə xaldır, üzə düzdürmüsən?
Şəkidə soltan qalmadı,
O xal nə xaldır, üzə düzdürmüsən?
De görüm nə xaldır, üzə düzdürmüsən?
– Xal mənim, yar mənim –
Xalqa nə borcdur, üzə düzdürmüşəm,
Yarım deyibdir, qoşa düzdürmüşəm.

– İrəvanda mən işlərəm,
O xal nə xaldır, üzə düzdürmüsən?
Xəncəlimi gümüşlərəm,
O xal nə xaldır, üzə düzdürmüsən?
De görüm nə xaldır, üzə düzdürmüsən?
– Xal mənim, yar mənim –
Xalqa nə borcdur, üzə düzdürmüşəm,
Yarım deyibdir, qoşa düzdürmüşəm.

# 11. YARIM ÇIXDI QABAQDAN

**Allegretto**




Mən gedirdim, yarım çıxdı qabaqdan,
Ay balam, qabaqdan.
Yarın şövqü məni saldı damaqdan, laylay.

Gəlin gedək Xan bağına xəzələ,
Ay balam, xəzələ.
Gözüm düşüb eyvandakı gözələ, laylay.

N ə q ə r a t:

Laylay, bala, laylay,
Laylay, gülüm, laylay.
Neynim, bala, neynim.
Neynim, gülüm, neynim.

# 12. ƏSMƏ, BADİ-SƏBA




Əsmə, badi-səba, əsmə,
Dəymə o tellərə,
Şanə vurmuş o tellərə,
Dad əlindən, balam,
Yar əlindən.

# 13. GÜNAHIM NƏDİR




İrəvanda bir quyu var,
Ay aman, ay aman, ay aman, ay aman, aman.
Nə əcəb sərin suyu var,
Ay aman, ay aman, ay aman, ay aman, aman.

Ay dil, ay dil, ay dil, ay dil,
Ay can, ay can, ay can, ay can.
Sevgilim, günahım nədir?
Sevgilim, təqsirim nədir?
Ay gülüm, günahım nədir?

# 14. ARAZ ÜSTƏ, DÜZ ÜSTƏ

**Andante**




– Araz üstə, düz üstə,
Kabab yanar köz üstə, bala,
Kabab yanar köz üstə.
Qoy məni öldürsünlər,
Bir alagöz qız üstə, bala,
Bir alagöz qız üstə.

– Araz üstə milçəyəm,
Əl vurma köynəkçəyəm, bala,
Əl vurma köynəkçəyəm.
Hamıya çirkin olsam
Öz yarıma göyçəyəm, bala,
Öz yarıma göyçəyəm.

# 15. BAX, BAX

**Allegro moderato**






Əlimdə narınc aşlaram,
Gülab ilə hey aşlaram,
Getsən gileyə başlaram.
Ay qız, mənə bir bax, bax.
Tez-tez mənə bir bax, bax.
Heç olmasa səhər-səhər
Dur gəl mənə bir bax, bax.
Hərdən mənə bir bax, bax.

# 16. DAĞDA BİTƏR LALƏLƏR






Dağda bitər lalələr, gözəlim,
Bülbül eylər nalələr.
Yar yolunu gözlərəm, gözəlim,
Bilmirəm havaxt gələr.

# 17. DƏRDİN ALIM




Otağına səndəl düzüm,
Yar, sənsən mənim iki gözüm,
Dərdin alım.
Sən gəlməsən, gəlləm özüm,
Malım qurban, canım qurban,
Nazlı dilbər, ay dərdin alım.

# 18. YAXAN DÜYMƏLƏ




Al ilə yaşıl bürünür,
Ətəyi yerlə sürünür.
Yel vurur, sinən görünür
Yaxan düymələ, düymələ,
Sinən düymələ, düymələ.

# 19. CAN QURBAN EYLƏR






Bu dağın üstündə,
Vay üstündə, can üstündə
Ceyran yol eylər, balam,
Ceyran yol eylər.
Sevgi – sevgisinə, sevgisinə, sevgisinə
Can qurban eylər, bala, can qurban eylər.

## 20. QARABAĞDA BİR DƏNƏSƏN

**Allegretto**






Qarabağda bir dənəsən,
Tovuz kimi məstanəsən.
Əyil öpüm gül üzündən,
Etmə məni divanə sən.
Yar, haray qurbanın ollam,
Ay haray tərlanın ollam.
Şəminə pərvanə ollam, balam,
Şəminə pərvanə ollam, ay balam,
Pərvanə ollam.

# 21. QADAN ALIM, AY QARAGÖZ




Qadan alım, ay qaragöz,
Səndə bu əda neçindir?
Nə üzüqaralıq etdim,
Mənə bu cəfa neçindir?

# 22. BAHAR OLDU




Bahar oldu, açıb çəmən gülləri,
Ay alagöz, ölürəm.
Şura gəlir bağçanın bülbülləri,
Gəl yarım, al canım.
Yaxşılaşır hər bir yanın havası,
Yenilәşir bu dünyanın binası.
Tərlanım, ceyranım,
Gəl başına dolanım.

# 23. AY LOYLU




Bizim yerlər aran olur,
Yağış yağır, boran olur,
Ay loylu, vay loylu.

Bizi burda görən olar,
Çıxma dağlar sinəsinə,
Ay loylu, vay loylu.

# 24. BİZƏ GƏL




Qızım, sənə başmaq alım,
Qızım, sənə paltar alım.
Gey, balam, gey, balam, bizə gəl.
Gey, gülüm, gey, nazım, düzə gəl.

# 25. ZÜLFÜN DARA






Zülfün dara, sal yana,
Bu canım sənə qurban.
Çək gərdənini, eylə yeriş,
Ey məhitaban.

# 26. DARA ZÜLFÜN

**Moderato**



Dara zülfün, sal hər yana,
Gözlərin bənzər ceyrana.
Bir danə zülfün verməərəm,
Şəki, Şirvan, həm Səlyana.
Ay qız, mənə bir bax, bax,
Hərdən mənə bir bax, bax.

## 27. YAR, NEYLƏDİM SƏNƏ




Arxalığın məndədir,
Sərmişəm çəməndədir.
Aləm gözələ dönsə,
Mənim gözüm səndədir.
Yar, neylədim, neylədim sənə?
Bir dönüb baxmadın mənə.

Ay doğdu düzə düşdü,
Qara saç üzə düşdü.
Dövranın çarxı dönsün –
Ayrılıq bizə düşdü.
Yar, neylədim, neylədim sənə?
Bir dönüb baxmadın mənə.

# 28. BÜLBÜLLƏR OXUR




Bülbüllər oxur,
Cəh-cəh edir
Bağda gül üstə.
Ay oğlan, boyu bəstə,
Gəl əyləş çəmən üstə.
Sən məndən busə istə, gülüm,
Mən deyim gözüm üstə.

# 29. QAŞIN ARASINDA XALIN




Qaşın arasında xalın,
Nə gözəldir gül cəmalın.
Bəs nədir sənin xəyalın?
Nazlı gözəl, yandım axı,
Hər qəmə dayandım axı.

# 30. ŞEYDA XANIM




Su gəlməz bağa neylim,
Dəyməz yarpağa neylim.
Yarım məndən küsübdür,
Gəlməz otağa neylim.

Su gəlir lilləndirir,
Bağçanı gülləndirir.
Dərdlini dindirməyin,
Dərd özü dilləndirir.

N ə q ə r a t:

Amandır, Şeyda xanım,
Yavaş get, mehribanım,
Sənə qurban bu canım.

# 31. LAYLAY




Hey!..
Mən gedirdim, yarım çıxdı qabaqdan,
Ay balam, qabaqdan, ay gülüm, qabaqdan,
Yarın Sözü saldı məni damaqdan.

Laylay, laylay,
Bala, laylay.
Laylay, quzu, laylay.
Neylim, bala, neylim,
Dərdim kimə deyim.

# 32. BİR ALAGÖZLÜ YAR




Bir alagöz, bir alagözlü yar, uzun boylu yar,
Neylim, neylim,
Neylim, neylim,
Hər yana baxanda öldürür məni, ay yazıq canım.
Bir sarıtel, bir sarı telli qaş-gözün oynadan,
Neylim, neylim,
Neylim, neylim,
Ağladığım yerdə güldürür məni, ay solan canım.

# 33. BƏLİ, BƏLİ, CAN




Bu dağdan atılaydım,
Qul olub satılaydım.
Bivəfa yar əlindən
Öləydim, qurtaraydım.

Armud ağacı suda,
Birin kəs, birin buda.
Gələydim yar yanına
Xumar gözlər yuxuda.

N ə q ə r a t:

Bəli, bəli, can, ay bəli,
Gözləri mərcan, ay bəli,
Zülfü pərişan, ay bəli.

# 34. SONA XANIM




– Sona xanım, çıx eyvana,
Bir bax bu gözəl oğlana.
Doğrusun söylə mərdana,
Hüsnü cəmalı yaxşıdır.

Altında vardır göy atı,
Pələng kimi əl-qol atır.
Bir anda mənzilə çatır,
Cahi-cəlalı yaxşıdır.

# 35. YADIMA SƏN DÜŞƏNDƏ




Eyləmi, daşlı dağlar,
Çınqıllı, daşlı dağlar.
Qorxuram gec gələsən,
Göz qala yaşlı, dağlar.

Əyləndinmi bağ üstə,
Şuşa, Şirvan dağ üstə.
Nə qaydadır fələkdə,
Dağı çəkər dağ üstə.

Dağlara çən düşəndə,
Güllərə şeh düşəndə.
Ruhum bədəndə oynar,
Yadıma sən düşəndə.

# 36. GƏLİRƏM, GEDİRƏM XƏBƏRİN OLSUN

**Moderato**




Gəlirəm, gedirəm xəbərin olsun,
Gümüş piyalələr mey ilə dolsun, a dilbər.

# 37. QALADA YATMIŞ İDİM

**Allegretto**




Qalada yatmış idim,
Top atdılar oyanmadım,
Sazilən, söhbətilən oyatdılar.

Çaldılar, oxudular,
Oyandılar, şad oldular,
Danışıb söhbəti də uzatdılar.

# 38. NƏ BAXIRSAN YANI-YANI




Nə baxırsan yanı-yanı,
Bala, bala, bala, yar-yar?
Olum gözlərin qurbanı,
Bala, bala, bala, yar-yar.
Əvvəlki məhəbbət hanı?
Ay balam ey, ay gülüm ey,
Gəl, yarım ey, al canım ey, ey.

# 39. XOŞ GƏLDİN




Gəlin deyər: – Hanı anam?
Yaxılmamış qalıb xınam.
– Qaynanadır sənin anan,
Gəlin, xoş gəldin, xoş gəldin.

Gəlin deyər: – Hanı bacım?
Su üzündə qalıb saçım.
– Baldızındır sənin bacın,
Gəlin, xoş gəldin, xoş gəldin.

Gəlin deyər: – Hanı atam?
Qoyunu quzuya qatan.
– Qaynatadır sənin atan,
Gəlin, xoş gəldin, xoş gəldin.

# 40. XOŞ GETDİN




Xəbər gəldi mən ağbaxta,
Qızım, səni yola salam,
Atandan mən rüsxət alam.
Get, səni saxlasın tanrım,
Qızım, xoş getdin, xoş getdin,
Əcəb ellərə tuş getdin.

Cer-cehizin vurmuş yükə,
Cilovların çəkə-çəkə,
Karvanın çıxacaq dikə.
Get, səni saxlasın tanrım,
Qızım, xoş getdin, xoş getdin,
Əcəb ellərə tuş getdin.

# 41. AY MÜBARƏK




Çəltiklər dirçəlibdir, ay mübarək,
Sünbüllər incəlibdir, ay mübarək,
Bu gün qəribə gündür, ay mübarək.
Bizə gəlin gəlibdir, ay mübarək!

Suyu arxa yönəltdik, ay mübarək,
Çaya, bostana getdik, ay mübarək,
Evin var olsun, fələk, ay mübarək,
Axır xoş günə yetdik, ay mübarək!

Bu çayların sonası, ay mübarək,
Sular üstə qonası, ay mübarək,
Biz də toya gəlmişik, ay mübarək,
Hanı cavan anası, ay mübarək!

# 42. GETMƏ BULAQ BAŞINA




Ana: – Getmə bulaq başına, qızım,
Çeşmə-çıraq başına, qızım.
Bir qara qaş-göz oğlan
Dəsmalını alar qaçar.

Qız: – Gedim bulaq başına, məmə,
Çeşmə-çıraq başına, məmə.
Qara qaş-göz oğlanın
Qoy baxım bir yol qaşına.

Ana: – Getmə bulaq başına, qızım,
Çeşmə-çıraq başına, qızım.
Dəsmal qaçıran oğlan
Səni alıb qaçar, qızım.

Qız: – Gedim bulaq başına, məmə,
Çeşmə-çıraq başına, məmə.
Qız öz istəklisindən
Həm utana, həm yaşına.

# 43. ƏS, EY GİLAVAR




Ay bu yerlər, sərin yerlər, əs, ey gilavar, gilavar.
Ay boy verməz dərin yerlər, əs, ey gilavar, gilavar.
Ay gətir xəbərin, ellər, əs, ey gilavar, gilavar,
Ay xoş gilavar, gilavar.

Bağça, barın iyi gəlir, əs, ey gilavar, gilavar.
Heyva, narın iyi gəlir, əs, ey gilavar, gilavar.
Səndən yarın iyi gəlir, əs, ey gilavar, gilavar,
Ay xoş gilavar, gilavar.

# 44. BOYUNA QURBAN




Yeri, yeri, bəstə boyuna qurban,
O yaraşığına, soyuna qurban.
Yeri, yeri baxım, könlüm açılsın
Adaxlına qurban, toyuna qurban.

# 45. GƏLMİŞİK




Çayda balıq tordan keçər, gəlmişik,
Hər bulaqdan bir su içək, gəlmişik.
Oğlanlar sevib gözəli seçər, gəlmişik,
Yarın camalın görməyə gəlmişik.

Gəlmişik biz obasına, gəlmişik,
Salam verək babasına, gəlmişik.
Biz kiçik qızın həvəsi ilə gəlmişik,
Yarın camalın görməyə gəlmişik.

# 46. BU GECƏ

**Allegro moderato**




Bu gecə xanım bacı bizə qonaqdır,
Sabahdan gəlin gedir, yolu iraqdır.
Yaxşı yol, yaxşı qıza – bizə qonaqdır,
Buradan keçən Nərgizə – yolu uzaqdır.
Ay bəxtəvər qızları – bizə qonaqdır,
Köçürtmək düşür bizə – yolu iraqdır.

# 47. TOYUN MÜBARƏK OLSUN

**Allegretto**




Dağları yaylım-yaylım, toyun mübarək olsun!
Düzündə necə qalım, toyun mübarək olsun!
Görün gözümə bir də, toyun mübarək olsun!
Qardaş qadanı alım, toyun mübarək olsun!

Sirəm-sirəm söyüdlər, toyun mübarək olsun!
Sirmə duran atlılar, toyun mübarək olsun!
Yüz igidin içində, toyun mübarək olsun!
Qardaşımın adı var, toyun mübarək olsun!

# 48. AY YOL AÇIN, GƏLİN GƏLİR




Ay yollara gül döşəyin, yol açın, gəlin gəlir,
Gül olsun, güldən geyin, ay yol açın, gəlin gəlir.
Qardaşın gül toyudur, yol açın, gəlin gəlir,
“Mübarək olsun!” deyin, yol açın, gəlin gəlir.

# 49. APARMAĞA GƏLMİŞİK

**Moderato**




Aparmağa gəlmişik,
Şal almağa gəlmişik.
Oğlanın adamıyıq,
Aparmağa gəlmişik.

Qızın bəxti ağ olsun,
Qohumları sağ olsun.
Qızın getdiyi yollar
Görüm çilçıraq olsun.

Qızılgüllər koldadır,
Əl çatmayan qoldadır.
Qız ürəyi döyünür,
Oğlan gözü yoldadır.

# 50. NAR, EY NAR

**Andantino**



Su gəlir, arxa nə var, hey, nar, ey nar,
Çiməndən çarxa nə var, gül, ey reyhan.
Mən yarnan danışıram, hey, nar, ey nar.
Bilmirəm xalqa nə var, gül, ey reyhan.

Suyun bəndinə qurban, hey, nar, ey nar,
Yarın kəndinə qurban, gül, ey reyhan.
Həyətdə at yəhərlər, hey, nar, ey nar,
Sinəbəndinə qurban, gül, ey reyhan.

Çəltiyə basma ayaq, hey, nar, ey nar,
Ləkləri birgə sayaq, gül, ey reyhan.
Belə şirin sevginin, hey, nar, ey nar,
Adını biz nə qoyaq, gül, ey reyhan.

## 51. AŞAĞIDAN BİR GƏMİ GƏLİR




Aşağıdan bir gəmi gəlir, otuz iki başlı,
İçində bir qız əyləşib, zil qara qaşlı,
Qara gözlü,
Lalə üzlü,
Şəkər sözlü.

Ürəyimdə nələr çəkirəm, yarım bir biləydin,
Canımı dərdə salan tək, çarəmi qılaydın,
Qara gözlü,
Lalə üzlü,
Şəkər sözlü.

# 52. ALMANI ALMA, GƏLİN




Almanı alma, gəlin,
Al, yerə salma, gəlin.
Evlərdə çox söz olar,
Ürəyinə salma, gəlin.
Almanı al, almanı al,
Almanı al, almanı al,
Almanı alma, gəlin.

Su gələr bəndə dəyər,
Kəkil kəməndə dəyər,
Səndə olan zabitə
Tamam bu kəndə dəyər.
Almanı al, almanı al,
Almanı al, almanı al,
Almanı alma, gəlin.

Ay gəlin, gözüm gəlin,
İşlərəm, özüm gəlin,
Neyləsin qaynanası,
Tənbəldir bizim gəlin.
Almanı al, almanı al,
Almanı al, almanı al,
Almanı alma, gəlin.

# 53. GƏL AL MƏNİ, YAR, YAR




Qalanın dibində hey qırğı səslənir, yar,
Qoyunun altında quzu bəslənir, yar,
Yar yarı görəndə çox həvəslənir, yar.
Gəl al məni, yar, yar,
Çıxaq düzə, yar, yar.

# 54. ƏZMƏ, ƏZMƏ TAĞLARI




Bağı yara saxlamışam,
Əzmə, əzmə tağları,
Saraldı yarpaqları.
Asta, xanım, asta, xanım,
Get yarı sən səslə, xanım.
Şamamanı tağdan qopar,
Sinən üstə bəslə, xanım, hey.

# 55. XINAYAXDI HAVASI

**Moderato**




Ay xeyir-dua qıza verin,
Ay xınanı yaxın əlinə, əlinə,
Xəbər getsin qohumuna, elinə.

Ay yollayın oğlan evinə,
Ay onu saxlasın yaradan, yaradan.
Yaxşı çıxıbdır rastına, baxtına.

# 56. HƏSİRİ BASMA

**Moderato**



Dolayı gəl, dolayı, həsiri basma, dolan gəl,
Süpürmüşəm sarayı, həsiri basma, dolan gəl.
Qurtarmağa az qalıb hey,
Gözlərəm təzə ayı hey, həsiri basma, dolan gəl,
dolan gəl, dolan gəl.

Gəl saçını hörüm mən, həsiri basma, dolan gəl,
Bir-bir bəndin vurum mən, həsiri basma, dolan gəl.
Nə istəyirsən qanmıram hey,
Yovuq gəl bir, görüm mən hey, həsiri basma, dolan gəl,
dolan gəl, dolan gəl.

# 57. YELPAZƏ




Dəryaya girmərəm, dərya dərindir,
Suyundan içmərəm, suyu sərindir.

Evlərinin dalı su dingi, pəri,
Canımı sən alma, qaragöz pəri.

N ə q ə r a t:

Yelpazə-yelpazə, yelpazələnər,
Yar yarı görcəyin can təzələnər.

# 58. AŞIQ BALANI




Belə balanı hay, bazarda həsir,
Belə balanı hay, bağda gül əsir,
Belə balanı hay, oğlan tələsir,
Belə balanı hay, aşıq balanı.

Belə balanı hay, dərdin güllərdə,
Belə balanı hay, qaldın əllərdə,
Belə balanı hay, salıbdır dərdə,
Belə balanı hay, aşıq balanı.

Belə balanı hay, bağçadan keçdim,
Belə balanı hay, suların içdim,
Belə balanı hay, mən özüm seçdim,
Belə balanı hay, aşıq balanı.

# 59. NA-NA-NAY




Na-na-nay, na-nay, na-nay, sənə qurban, ay oğlan,
Na-na-nay, na-nay, na-nay, mənə ver sən hay, oğlan.

Na-na-nay, na-nay, na-nay, dağ yeli əsir yenə,
Na-na-nay, na-nay, na-nay, əsir yel, kəsir yenə.
Na-na-nay, na-nay, na-nay, çoxdan əsir deyildim,
Na-na-nay, na-nay, na-nay, elədin əsir yenə.

Na-na-nay, na-nay, na-nay, su gəlib dolub bəndə,
Na-na-nay, na-nay, na-nay, tökülüb bizim kəndə.
Na-na-nay, na-nay, na-nay, bir ceyrana vuruldum,
Na-na-nay, na-nay, na-nay, İstisudan gələndə.

Na-na-nay, na-nay, na-nay, gedərəm Səmərqəndə,
Na-na-nay, na-nay, na-nay, qayıtmaram bu kəndə.
Na-na-nay, na-nay, na-nay, ay qara gözlü ceyran,
Na-na-nay, na-nay, na-nay, məndən üz döndərəndə.

Na-na-nay, na-nay, na-nay, sənə qurban, ay oğlan,
Na-na-nay, na-nay, na-nay, mənə ver sən hay, oğlan.

# 60. ƏYLƏN, GƏLİN




Ay gəlin, evlər ayrıdır, əylən gəlin, əylən gəlin,
Bizim elin adətini öyrən gəlin, öyrən gəlin.
Ay bu gecə ay doğacaq, əylən gəlin, əylən gəlin.
Ay bacılar oynayacaq, öyrən gəlin, öyrən gəlin.
Ay ata evi dar olar, əylən gəlin, əylən gəlin,
Ay qaynanalar kar olar, öyrən gəlin, öyrən gəlin.
Ay qayğına qalmasalar, əylən gəlin, əylən gəlin,
Ay sənə baxan yar olar, öyrən gəlin, öyrən gəlin.
Ay gəlin var işsiz durar, əylən gəlin, əylən gəlin,
Ay gəlin var evlər qurar, öyrən gəlin, öyrən gəlin.

# 61. ƏSMƏ, SƏBA YELLƏRİ



Dağlarda tək gəzərəm, hey,
Yarı görcək bəzərəm.
Əsmə, səba yelləri, hey,
Tökmə qızılgülləri, gülləri.
Qaraqaş, qaragözlü, hey,
Qarabirçək gəzərəm.
Əsmə səba yelləri, hey,
Tökmə qızılgülləri, gülləri.

## 62. NAR, NAR, NARGİLƏ




Narıncı tökdüm tasa,
Yarım düşdü tas-vasa.
Nar, nar, nargilə,
Durun gedək yargilə.

Dərdimi yara deyin,
Bəlkə yar qulaq asa.
Nar, nar, nargilə,
Durun gedək yargilə.

İynə sancdım divara,
Elçi göndərdim yara.
Nar, nar, nargilə,
Durun gedək yargilə.

# 63. GƏLDIM




Mən aşıq kəndə gəldim,
Bağ güllənəndə gəldim,
İgid bir oğlan gəlib,
Eşitdim, mən də gəldim.

Mən aşıq daşdı gəldim,
Çayları daşdı, gəldim,
Hamının ürəyindən –
Qəm-qüssə qaçdı, gəldim.

# 64. AY SONA



Ay Sona, gün getdi dağ başına,
Ay Sona, yar örtüb ağ başına
Yar örtüb ağ başına.

Ay Sona, oğlan şamama istər,
Ay Sona, dolanar tağ başına,
Dolanar tağ başına.

Ay Sona, dağdan gəlin gələsən,
Ay Sona, duvağı yellənəsən,
Duvağı yellənəsən.

Ay Sona, qurban olum o günə,
Ay Sona, qardaş üçün gələsən,
Qardaş üçün gələsən.

Ay Sona, getdiyin Bakı olsun,
Ay Sona, yara təvəkkül olsun,
Yara təvəkkül olsun.

Ay Sona, yara yaylıq demişəm,
Ay Sona, yeri bozarmış olsun,
Yeri bozarmış olsun.

# 65. BAĞÇASI, BARI




Ay bu dağlar, bizim dağlar, bağçası, barı,
Ay sırayla düzüm dağlar, bağçası, barı.
Ay qurbanam qara gözlü, bağçası, barı,
Ay yarıma özüm, dağlar, bağçası, barı.

Heyvası, narı
Ha şeydalı,
Ha meydalı,
Yara dildarı.

# 66. NEY ŞİKƏSTƏSİ




Göydə gün çıl-çıraqdır,
Yerdə güllər qonaqdır.
Yarım gedən haçaqdır, hey, hey, hey,
Soraq verin bülbüldən,
Bülbüldən, bülbüldən, bülbüldən.

Gül açar sarmaşıqlar,
Bağçanı yaraşıqlar.
Ərzimi yara desin, hey, hey, hey
Söz-söhbətnən aşıqlar,
Aşıqlar, aşıqlar, aşıqlar.

# 67. EVLƏRİ TƏRTƏR ÜSTƏ




Evləri Tərtər üstə,
Tər yorğan örtər üstə.

Yarın çuxası bizdə,
Görək nə örtər üstə.

Alaçığa girmərəm,
Saçlarımı hörmərəm.

O vəfasız yarımın,
Bir də üzün görmərəm.

# 68. QADAN ALIM




Mən gedirəm, ağlama,
Aman, aman, aman ölürəm.
Ürəyimi dağlama,
Aman, qadanı alım.

# 69. NAR ATDILAR




Nar atdılar, yar hey,
Sərinən-sovqatınan oyatdılar, yar hey,
Ay bu dağda ceyran gəzər,
Nar atdılar, yar hey.
Ay süsən sünbülü bəzər,
Nar atdılar, yar hey.
Ay yarından ayrı düşən,
Nar atdılar, yar hey.
Ay görəsən necə dözər,
Nar atdılar, yar hey,
Sərinən-sovqatınan oyatdılar, yar hey.

# 70. HALAY


Largo
Hay- lo- lo- lo- lo- lo- lo, ya lə- li.
Ay bu da – ğın cey – ra – nı yar,
Ay cey – ra – nın hey – ra – nı yar.
Ay qo – şa gə – zər bül – bül – lər,
Ay a – dax – lın bəs ha – nı, yar?
Hay- lo- lo- lo- lo- lo- lo, ya lə- li.
Allegro
Ha–lay ca – nım, ha–la – yı dön – dər bə – ri.
Ha–lay ca – nım, qı – zıl – gül – dən bu – ta – san,
Ha–lay ca – nım, dos – tu ə – ziz tu – ta – san.
Ha – lay ca – nım, mən o gül – dən de – yi – ləm,
Ha – lay ca – nım, iy – lə – yə – sən a – ta – san.




Hay-lo-lo-lo-lo-lo-lo, ya lə-li.
Ay bu dağın ceyranı yar,
Ay ceyranın heyranı yar.
Ay qoşa gəzər bülbüllər,
Ay adaxlın bəs hanı, yar?
Hay-lo-lo-lo-lo-lo-lo, ya lə-li.

Halay canım, halayı döndər bəri.
Halay canım, qızılgüldən butasan,
Halay canım, dostu əziz tutasan.
Halay canım, mən o güldən deyiləm,
Halay canım, iyləyəsən atasan.
Halay canım, halayı döndər bəri,
Halay canım, halayı döndər bəri.

# 71. A DAĞLAR

**Allegro moderato**




A dağlar, qızılgül oyum-oyum,
A dağlar.
Dərim qoynuma qoyum,
A dağlar.
Yarım dəsmalına gül dəstə bağlar.

# 72. KİMİN YARISAN




Hilnən mixəyi mən istəyəndə,
Düzün gətirin, düzün gətirin.
Yara sovqat göndərmək üçün
Bağın gülündən üzün gətirin.
Sevdim, alagözlü, kimin yarısan?

Evlərinin dalı mərmər qayası,
İnəyi sağarlar, oynar balası.
Yarı dindirin bir söz-söhbətinən,
Dəysin canıma hey yarın qadası.
Sevdim, alagözlü, kimin yarısan?

# 73. CAN GÜLÜM, CAN-CAN

**Andantino**




Bu gələn dörd atlıdır,
Can gülüm, can-can.
Dördü kəhər atlıdır,
Gəl, gülüm, yar hey.

# 74. AY NƏNƏM DƏ QURBAN

**Moderato**




Bazara tökülüb əlvan yemişlər,
Yar yarı görəndə barmağın dişlər,
Ay nənəm də qurban.

# 75. GÜLBAŞMAQ




Qız: Döngəmizdə duran oğlan,
Bığlarını buran oğlan,
Mənə kirpik vuran oğlan.
Ver mənim güllü başmağım,
Dabanı pullu başmağım.

Oğlan: Döngəmizdə durmamışam,
Bığlarımı burmamışam,
Sənə kirpik vurmamışam.
Hardan verim gül başmağın,
Dabanı pullu başmağın.

Qız: Gül bağçanda barın ollam,
Şirin heyvan, narın ollam,
Həmişəlik yarın ollam,
Gətir mənim gül başmağım,
Dabanı pullu başmağım.

Oğlan: Gül bağçamda barım olsan,
Şirin heyvam, narım olsan,
Həmişəlik yarım olsan,
Verrəm sənin gül başmağın,
Dabanı pullu başmağın.

# 76. DƏSMAL




Qız: Səhəngi aldım, nənə,
Suya yollandım, nənə.
Bu viranə çöllükdə
Dəsmalı saldım, nənə.
Məni döydürmə, nənə,
Məni söydürmə, nənə.

Nənə: Səhəngi aldın, qızım,
Suya yollandın, qızım.
Bu viranə çöllükdə
Kimə rast oldun, qızım?
Səni döydürməm, qızım,
Səni söydürməm, qızım.

# 77. SU GƏLDİ




Ay toy elə gəlim toya, su gəldi bürüdü yolları, ay gəlin.
Ay qurbanam belə boya, su gəldi bürüdü yolları, ay gəlin.
Kağızdan ağdır qolların, ay gəlin.

Ay aya bax, necə gedir, su gəldi bürüdü yolları, ay gəlin.
Ay yorulub gecə gedir, su gəldi bürüdü yolları, ay gəlin.
Kağızdan ağdır qolların, ay gəlin.

Ay qardaşın gül toyuna, su gəldi bürüdü yolları, ay gəlin.
Ay başlarda xonça gedir, su gəldi bürüdü yolları, ay gəlin.
Kağızdan ağdır qolların, ay gəlin.

# 78. İKİ ALMA




Ağacda iki alma,
Birin al, birin alma.
Sallan, gülüm, sallan, gülüm,
Sallan gülüm, axşam oldu,
Göndər gəlsin sevgilimi.

# 79. PİYADA KOROĞLU

**Allegro moderato**




Uca-uca dağlar başı
Qarlı da olur, qarsız da olur.
Cəhd elə bir işdə tanın –
Sənli də olur, sənsiz də olur.

Koroğlunun atı gərək,
Atlı da olur, atsız da olur.
Bir igidin zatı gərək –
Varlı da olur, varsız da olur.

# 80. YERİ, YERİ




Yeri, yeri, qurbanın olum,
Gəl bəri, qurbanın olum.
Gülə-gülə-gülə gəl yanıma
Ay pəri, qurbanın olum,
Gəl bəri, qurbanın olum,
Mən sənin heyranın olum.

# 81. HƏYƏTLƏRİ SOĞANLIQ




Həyətləri soğanlıq, balam,
Suları gəlir bulanlıq,
Təzə çıxan çitlərdən, balam,
Yarıma allam tumanlıq.
Atma daş, vurma daş
Nar dənəsiyəm mən,
Atamın, anamın
Birdənəsiyəm mən.

# 82. AY UCA DAĞLARIN BAŞINDA




Ay uca dağların başında…
Ay bir əlində güllü dəsmal.
Ay balam, ay gülüm,
Yarım gəlir gülə-gülə,
Ay balam, ay gülüm,
Qan-tərini silə-silə.
Ay balam, neynim?
Ay gülüm, neynim?
Ay neynim, ay neynim, ay neynim,
Ay balam, ay gülüm,
Bu gələn yara mən neynim…

# 83. GƏMİ BƏND OLUR




Həştərxana gedən ay gəmi bənd olur,
Ay qayıdıb gələndə yükü qənd olur.
Qızların gözəli ay gözə bənd olur.
Ay yanaram oduna, misli-pərvana,
Ay qaçaram əlindən, ay qız, hər yana.
Bir busə vergilən ay mərdi-mərdana!
Ay qoyub gedim səni, qal yana-yana.

# 84. QAPIDA DURAN MƏNƏM, MƏN




Qapıda duran mənəm, mən,
Boynunu buran mənəm, mən.
Qapını aç, girim, xanım,
Qapını vuran mənəm, mən.
Ölürəm, ölürəm, ölürəm mən.
Yarı bivəfa görürəm mən.

# 85. GƏL, GƏL, AY ELLƏR GÖZƏLİ

**Allegretto**




Naxçıvanda bir quyu var,
Şəkərdən şirin suyu var,
Hər gözəlin bir soyu var.
Gəl, gəl, ay ellər gözəli,
Tez gəl, ay ellər gözəli.

Nanə suyu, nanə şəkər,
Mənim könlüm səni çəkər,
Çəkər, aman, hey… çəkər.
Gəl, gəl, ay ellər gözəli,
Tez gəl, ay ellər gözəli.

# 86. YERİ, NAZƏNİN

**Allegretto**




Ay balam, neçin dərdin dərya olub?..
Halım xarabdır, yeri, nazənin!
Ürəyim kababdır, yeri, nazənin!

Sevgilim, gəl rəhm eylə, mən yazığam…
Ürəyim qandır, yeri nazənin!
Ay qız, amandır, yeri nazənin!

# 87. KAŞ Kİ, PİS GÜN OLMUYAYDI

**Allegretto**



Kaş ki, pis gün olmuyaydı,
Gülü rəngim solmuyaydı,
Kaş ki, yarım getmiyəydi,
Məni məhzun etmiyəydi.

## 88. GƏLİNLƏR




Gəlinlər, ay gəlinlər, gözəl gəlinlər,
Nə qəşəng hörülübdür o qara tellər, o tellər.
Gəlinlər, ay gəlinlər, incə gəlinlər,
Mənsiz sizi qəmgin edərlər, edərlər, edərlər.
Gəlinlər, ay gəlinlər, qəşəng gəlinlər,
Sizi mən bəsləmişəm, yansın ölənlər, ölənlər.
Üzünə ay desələr, xəcil olur ay,
Qaşına yay desələr, olmaz ona tay, ona tay.

# 89. CAN VERMƏ QƏMİ-EŞQƏ

**Allegretto**




Can vermə qəmi-eşqə ki, eşq afəti-candır,
Eşq afəti-can olduğu məşhuri-cahandır.
Eşq içrə əzab olduğun ondan bilirəm kim,
Hər kimsə ki, aşiqdir, işi ahu-fəğandır.

# 90. AĞ DƏVƏ YÜKLƏNİBDİR




Ağ dəvə yüklənibdir,
El dağa diklənibdir,
Bağ, meşə təklənibdir.
Gəl, gəl, evi yıxılmış,
Tez gəl, evi yıxılmış.

# 91. YARIM QƏŞƏNGİ



Ey mehribanım, arami-canım,
Yoxdur fəraqə səbri-qərarım.
Zəngi, zəngi hey… zəngi,
Mənim yarım qəşəngi.

# 92. SALMA GÖZDƏN MƏNİ

**Moderato**



Salma gözdən məni, ey qönçə-dəhan.
Həmdəm olma, gedib əğyar ilə sən.
Heç vəfa yoxdur gözəl güllərdə,
Hər zaman nalədir bülbüllərdə.
Ahu-əfğandır hamı dillərdə,
Bivəfa olma sən, ey incə bədən.

# 93. ATLANDIM NƏRMAN İLƏ




Atlandım Nərman ilə,
Düşdüm Süleyman ilə, bala,
Düşdüm Süleyman ilə.
Kabab yedim, çay içdim,
Beynim doldu qan ilə, bala,
Beynim doldu qan ilə.

Qara qızam, ulduzam,
Həm şəkərəm, həm duzam, bala,
Həm şəkərəm, həm duzam.
Öldürmə Süleymanım,
Mən yazığam, yalqızam, bala,
Mən yazığam, yalqızam.

# 94. AĞLAMA, BALAM

**Andantino**




Samavara od salmışam, ağlama, balam, ağlama,
İstəkana qənd salmışam, ağlama, balam, ağlama.
Səni anandan almışam, ağlama, balam, ağlama.
Səksənmə, diksinmə yarın yanında sən, balam,
ağlama, bircəm, ağlama.

Əlin əlimə almışam, ağlama, balam, ağlama.
Qolun boynuma salmışam, ağlama, balam, ağlama.
Sən getmisən, tək qalmışam, ağlama, balam, ağlama.
Səksənmə, diksinmə yarın yanında sən, balam,
ağlama, bircəm, ağlama.

# 95. HARAY, MƏN ÖLLƏM




Qarğımışam bənövşələr bitməsin,
Xar gəlibən gül yanımdan ötməsin,
Səni görüm əlin ələ yetməsin.
Haray, mən ölləm,
Haray, mən ölləm.

Canım, gözüm o qamətin qurbanı,
Qamət nədir qiyamətin qurbanı.
Aləm olub məhəbbətin qurbanı.
Haray, mən ölləm,
Haray, mən ölləm.

# 96. GEDƏRƏM ELXANA




Həştərxana gedən gəmi gəlmədi,
Üstü dolu tirmə gəbəm gəlmədi.
Elxana dedim: – Al məni, almadı.
Ayölləm,ölləm gedərəm Elxana,
Şam-çıraq ollam, gedərəm Elxana.

Saralıb solmuşam, qızılgül kimi,
Saç tökülüb, gül üzə sünbül kimi,
Oxuyuram mən şeyda bülbül kimi.
Ayölləm, ölləm, gedərəm Elxana,
Şam-çıraq ollam, gedərəm Elxana.

# 97. LEYLACAN

**Allegretto moderato**




Durnadı-durna, telləri burma Leylacan,
Ahu tək baxıb boynunu burma, Leylacan.
Gözləri bənzər ahu ceyrana, Leylacan.
Leyla gülüm, Leylacan,
Şəxi-sünbülüm, Leylacan,
Nazlı bülbülüm, Leylacan,
Saçı sünbülüm, Leylacan.

# 98. LEYLAN




Səhər-səhər durar gedər hamama,
Hamamdan çıxanda olar şamama.
Leylan, ay imanım, Leylan,
Leylan, ay gümanım, Leylan.
Leylan, ay sarısaç, Leylan.
Leylan, ay qoşul qaç, Leylan.

# 99. UCA DAĞ BAŞINDA




Uca dağ başında ceyran yol eylər,
Ürəyim başında peykan yol eylər,
Sevgi-sevgisinə can qurban eylər.
Mənim maralım,
Səbri-qərarım,
Yusif-cəmalım.
Ey dilbəri-canım, mənim,
Gəlişin mübarək!
Ey Yusif-kənanım mənim,
Yerişin mübarək!

# 100. NƏZİR EYLƏMİŞƏM




Nəzir eyləmişəm sən kimi bir yarım olaydı.
Bülbül çəmənimdə gülü-gülzarım olaydı.
Olmaz belə qamət, belə gərdən, belə sinə,
Bəh, bəh, nə deyim, şükrü xudanın kəreminə.
Əhsən bu gəlinə,
Bazu-biləyinə.

# 101. OYAN, OYAN




Mən Abbasam, yollar üstə duraram,
Gah gedərəm, gah boynumu buraram,
Yol ötəndən sevgilimi soraram…
Oyan, oyan, ədə, qadan mən allam.

# 102. MÜRSƏL




Mürsəl, tərifin çıxdı hər yana,
Gözlərin bənzər ahu-ceyrana.
Mürsəl, qılıncın oynat əlində –
Qoy düşmənlərin batsın al-qana.

# 103. BAZARDA KİŞMİŞ




Bazarda kişmiş, vaxtı indidir,
Ciblərə düşmüş, vaxtı indidir,
Təzə yetişmiş, vaxtı indidir.
Dani, dani, dani,
Alım mən qadanı.

El xanı getdi,
Bala diley, diley.
Dani, dani, dani,
Alım qada-balanı.

# 104. QARAGÖZLÜ NİGARIM VAR




Mənim bu aləm içrə bir qaragözlü nigarım var,
Gecə-gündüz fərağında nə səbri, nə qərarım var.
Aman, aman, aman, aman,
Yarım aman, aman, aman!
Səni şəhla gözəllər tək
El içində sevən çoxdur,
Yarım, aman, aman, aman!

# 105. GƏL GÖRÜM




Gəl görüm, gəl görüm, kimin yarısan?
Hansı igidlərin vəfadarısan?
Kimə qəsd etmisən, əli qanlısan?

Ayrılıqdır səni bu hala salan,
Bu dünyada yoxdur dərdinə qalan.
Eşq odu var səndə, nə bilsin anan?

N ə q ə r a t:

Ay alagöz balam, ay quzu balam.
Ağla, balam, ağla, gülüm!
Ayrılmısan yarın yox,
Heç bir vəfadarın yox.

# 106. BAZARDA BAL VAR, LAYLAY




Bazarda bal var, laylay,
Ağ üzdə xal var, laylay.
Get yara yalvar, laylay,
Çətin bir işdir, vay, vay.
Gülümsən, gəl mənə sarı,
İncitmə vəfadarı.
Gəl bəri dur, yanıma gəl,
Dərdin canıma, gəl.

# 107. YAD ALDI MƏNİ




Kişmiri şalın ollam,
Dad aldı məni.
Ağ üzdə xalın ollam,
Yad aldı məni.
Anama yalvar, oğlan,
Dad aldı məni.
Mən sənin yarın ollam,
Yad aldı məni.
Dadey, dadey, dadey, dadey
Dad aldı məni.
Almadı qonum-qonşu,
Yad aldı məni.

# 108. NECƏ QIYDIN

**Andante**




Gəlin gedək Xoruzlunun düzünə,
Ay, güllə dəyib, Urustamın dizinə.
Ay zalım oğlu, ay beydin oğlu,
Sən necə qıydın, Urustamı öldürdün?
Sən necə qıydın, şam-çırağın söndürdün?

# 109. TİRMƏ ŞALIM

**Moderato**



Yarım şərbət içibdir,
Yeri, yarım, hey, hey...
Mənimki ta keçibdir,
Yeri, yarım, hey, hey...
Durum başına tirmə
Şalı salım hey, hey.

# 110. EY BİVƏFA YAR, SƏNİ

**Moderato**




Ey bivəfa yar, səni
Necə salım yada mən...
Fələk qoymaz şad olum,
Bu fani dünyada mən.

Ayrı düşdüm gülümdən,
Gülümdən, bülbülümdən,
Bivəfa yar əlindən,
Kimə gedim dada mən...

# 111. AY SARISAÇ




Mən gələndə bənövşələr gül idi,
Ah çəkməkdən cavan ömrüm çürüdü.

N ə q ə r a t

Qurban olum səni doğan anaya,
Səni doğdu, məni saldı bəlaya.

N ə q ə r a t

Qurban olum ala gözün şəstinə,
Bal tökülüb al dodağın üstünə.

N ə q ə r a t

N ə q ə r a t:

Ay imanım, vay gümanım,
Ay sarısaç, vay qələmqaş.

# 112. HARAY NAŞI ƏLİNDƏN




Haray naşı əlindən,
Atmaz daşı əlindən.
Yastıq şikayət eylər,
Gözüm yaşı əlindən.

Gecə uzun, ay batmaz,
Dərdlilər gecə yatmaz.
Mənim bu xəstə könlüm,
Dərdin, qəmin azaltmaz.

Qızıl güləm, qızılgül,
Sən qızılgül, mən bülbül,
Dünyaca dərdin olsa,
Düşmən görsən, yenə gül.

# 113. AYRI DÜŞDÜM

**Moderato**




Hər tərəfdən bir səs gəlir,
O səs ürəyimi dəlir.
Mən gedirəm, yolum dağdır;
Gəl, gör nə nəşəli çağdır.
Ax, o güllər nə gözəldir...
Ayrı düşdüm yarımdan.

# 114. NAMƏRD OĞLAN

**Allegretto**



Oturmuşdum eyvanda,
Ay oğlan, namərd oğlan.
Yarım qalıb Şirvanda,
Başı bəlalı, ürək yaralı,
Ay namərd oğlan.

## 115. CANLAR İÇİNDƏKİ CANIM




Canlar içindəki canım ay, canım ay,
Sənindir, sənindir, ay zalım.
Qoynundakı bir cüt barın ey, barın ey,
Mənimdir, mənimdir, ay zalım.

Aman, aman ay,
Qaşı kaman ay,
Gəl imana ay.
Dilbilməz,
Sirverməz.

# 116. İSTƏKANIN DEŞİLSİN




İstəkanın deşilsin,
Suyu ağa tökülsün.
Sizin bağın meyvəsi
Bizim bağa tökülsün.

Ey dinim, imanım, gəl, gəl,
Qaşı kamanım, gəl, gəl,
Dinim, imanım, gəl, gəl,
Qaşı kamanım, gəl, gəl.

# 117. BOYNUNDA VAR SARILIQ




Boynunda var sarılıq,
Nə yaman olur ayrılıq.
Özündən gəl sən inci –
Gör nə günə qalırıq.

Haray, gözəl, şən gəlin,
Dağ başından en, gəlin.
Xəlvətdə bir sözüm var,
Səni deyim mən, gəlin.

# 118. HÜSNÜ BAĞINDA




Hüsnü bağında gəzəsən, gülü-sünbül dərəsən,
Sən kimi bir gözəli, bağın içində görəsən.
Baxasan ləli-ləbinə, olasan məsti-xumar,
Deyəsən, bir belə işrət olamaz gər görəsən.

# 119. QARABAĞIN YOLLARINA DÜŞƏYDİM



Naxçıvanın gədiyindən aşaydım,
Qarabağın, ay Qarabağın yollarına düşəydim,
Yarım ilən, yarım ilən bir görüşəydim.
Aman, aman, ay Kərəm qaçaq,
Aman, aman, yarım aman, hamıdan qoçaq.

## 120. ÖLÜRƏM, AY ELLƏR QIZI

**Allegro moderato**




Çinni tuman vız-vızı,
Ölürəm, ay ellər qızı,
Dodaqları, yanağı,
Lalə kimi qırmızı.

Arxalığın üçdümü?
Baftası gümüşdümü?
Başında şal badamı,
Mən alaram qadanı.

N ə q ə r a t:

Ölürəm, ay ellər qızı,
Yanıram, ay ellər qızı,
Ölürəm, ay ellər qızı.

# 121. PİNƏÇİ MƏNƏM




Pinəçi mənəm, pinəçi mənəm,
İşləməsəm mədarım keçmir, ay aman.
Bu qışı burda, bu qışı burda
Qışlamasam, mədarım keçmir, ay aman.

# 122. MƏNİ DÖVRİ-FƏLƏK QOYMUŞ




Məni dövri-fələk qoymuş
Biyabanlarda avarə.
Həbibim, gəl, təbibim, gəl,
Qəmi-hicrə edək çarə.

# 123. SEVGİLİ YAR




Sevgili yarım, baxışın alır canımı, neylim...
Aşiq olmuşam, ay aman, düşübdür sənə meylim.
Ağ buxaqda xalını görüb heyranın ollam.
Gəl məni qonaq eylə, gözəl, qurbanın ollam.
Qoynunda var bir cüt bar: biri heyva, biri nar,
Gözüm üstə yerin var, ay qaraqaş, qaragöz.

# 124. ABI-YAŞILA BÜRÜNÜR

**Moderato**




Abı-yaşıla bürünür, balam,
Yarın dalınca sürünür.
Yel vurur, sinən görünür, balam.
Səni yanasan, ay qız!
Bircədənəsən, ay qız!
Aparırlar səni xan yanına, bala, bəy yanına,
Məni danasan, ay qız,
Bircədənəsən, ay qız!

# 125. YAQUT YƏMƏNİ NEYLƏR

**Andantino**






Yaqut yəməni neylər,
Ördək çəməni neylər?
Səntək boylu-buxunlu, balam,
Sərvi, səməni neylər?

Dağlar başı tütündür,
Kimin bağrı bütündür?
Əyil üzündən öpüm, balam,
Dünya ölüm-itimdir.

N ə q ə r a t:

Gəl, gəl, ahu balası,
Uca dağlar qalası.
Dəsmal gətir, gül apar,
Xəlvətən bağ arası.

# 126. TİFLİSİN YOLLARI




Tiflisin yolları xurma,
Yar saçları burma-burma.

N ə q ə r a t

Tiflisin yolları daşdı,
Mənim yarım qələmqaşdı.

N ə q ə r a t

Tiflisin yolları püstə,
Yarım gəlsin, gözüm üstə.

N ə q ə r a t

N ə q ə r a t:

Hanı mənim nadan yarım,
Qaş-gözün oynadan yarım?

# 127. MƏN GEDİRƏM ZƏNGİLANA




Mən gedirəm Zəngilana,
Ay ana, ana, qal yana-yana,
Gedirəm axı, gedirəm axı.
Şux, qarabirçək oğlana,
Ay ana, ana, qal yana-yana,
Gedirəm axı, gedirəm axı.
Səndən üzüldü əllərim,
Bağçada qaldı güllərim,
Lal olacaq bülbüllərim.

# 128. QIZIM




– Qızım, səni çobana verirəm.
– Yox, dədə canım, yox, yox!
Çoban gedər qoyuna,
Başım düşər oyuna...
Yox, dədə canım, yox, yox!

– Qızım, səni aşığa verirəm.
– Ver, dədə canım, ver, ver!
Aşıq bilər qədrimi,
Yaxşı tapdın fəndimi,
Ver, dədə canım, ver, ver!

# 129. GƏLMƏDİN, YAR






Sübhətək çəkmişəm intizarın,
Eşqindən olmuşam biqərarın,
Gəl, görüm uzaqdan gül camalın,
Gəlmədin, gəlmədin, gəlmədin, yar.

# 130. GƏL MƏNİ ALDATMA






Gəl məni aldatma, gözəl, bax mənə,
Qaş-gözün oynatma, gözəl, bax mənə.

Nazlı nigarım, ey əzizim, məni,
Bir sözə gəl satma, gözəl, bax mənə.

N ə q ə r a t:

Qoy dolanım başına pərvanə tək,
Salma məni çöllərə divanə tək.

# 131. QAŞIN ARASINDA






Qaşın arasında xalın,
Nə gözəldir gül camalın,
Bəs nədir sənin xəyalın?
Zalım qızı, yandım axı,
Hər qəmə dayandım axı.
Mən ki can alan deyiləm,
Mən ki can alan deyiləm,
Sən ki can alansan axı,
Hər qəmə dayandım axı.

# 132. QIZILGÜL

**Moderato**




Qızılgülsən, butasan, balam,
Məni salma oda sən;
Mən o güldən deyiləm, balam,
İyləyəsən atasan.

Qızılgül dən-dən oldu, balam,
Dərmədim, dən-dən oldu;
Mən səndən ayrılmazdım, balam,
Ayrılıq səndən oldu.

## 133. ARANDA QALDIM




Aranda qaldım, ay nənə,
Həsrətdən yandım, ay nənə.
Məni dağa göndər,
Çiyələyə göndər.
Məni dağa göndər, ay nənə.
Çiyələyə göndər.

Aranda bişdim, ay nənə,
Dillərə düşdüm, ay nənə.
Məni dağa göndər,
Çiyələyə göndər.
Məni dağa göndər, ay nənə,
Çiyələyə göndər.

## 134. ELLƏRƏ DƏ VER






Şamaxının Çuxuryurdu...
Ellər alaçığın qurdu,
Təzəgəlin sübhdən durdu,
Oğlun aldı, layla çaldı.

Qarabağın yaylağında,
Şəkinin güllü bağında.
Təzəgəlin sübh çağında,
Oğlun alır, layla çalır.

N ə q ə r a t:

A tanrı, bundan beş dənə də ver;
Göydə uçan quşlara da ver,
Qarımış-qocalmışlara da ver,
Evində qalmışlara da ver.

# 135. KÖNLÜM ELƏ PÜNHANDIR






Könlüm elə pünhandır al güllər arasında,
Şanə gəzibən tapmaz, ey yar, yüz minlər arasında,
Məstanə xumar gözlər hərdən mənə naz eylər,
Qaldıq nə yaman yerdə, ey vay, dərdlilər arasında.

# 136. ALTIMDA MADYAN






Altımda madyan keçirdim çaydan,
Qırmızı faydan tuman al mənə.
Geyim, dolanım, naz verim sənə,
Geyim, sallanım, sən də bax mənə.

Əlində sazı, eyləmə nazı,
Güllü qanozu köynək al mənə.
Geyim, dolanım, naz verim sənə,
Geyim sallanım, sən də bax mənə.

## 137. BUDUR, BİR CÜT QARA GÖZ



Budur, bir cüt qara göz canımı almağa gəlir,
Birisi qolların açıb boynuma salmağa gəlir,
Birisi qəm-qüssə ilə könlümü çalmağa gəlir.

Birisi tez qayıdacaq, birisi qalmağa gəlir,
Birisi qolların açıb, boynuma salmağa gəlir,
Birisi qəm-qüssə ilə könlümü çalmağa gəlir.

N ə q ə r a t:

Ağdı buxağı Güllünün,
Yaxşıdı çağı Güllünün.
Gün kimi işıq verir
Ayna buxağı Güllünün.

# 138. YENƏ, YARƏB



Yenə, yarəb, nə qəmgindir,
Mənim dilşad olan könlüm.
Rümuzi eşqidən agah
Olub, ustad olan könlüm.

Həmişə bəd keçir halım,
Pərişan oldu əhvalım.
Əridi mum tək, ey zalım,
Mənim dilşad olan könlüm.

# 139. DİLBƏR




Ey dilbərim dilinə, ey dilbərim dilinə,
Ay dilbər, ay dilbər, ay dilbər.
Bu aşiqi-miskinə, bu aşiqi-miskinə,
Ay dilbər, ay dilbər, ay dilbər.
Bir busə ver, al canım, dilbərcan, dilbərcan,
Əbru-kəman, ay dilbər, dilbərcan, dilbərcan.

## MÜNDƏRİCAT


1. Tərlan kimi ....................5
2. Nə durmusan dağ başında ....................6
3. Mən gülü dəstə bağlaram ....................7
4. Telli ....................8
5. Yarıma bax ....................9
6. Bulud zülflü ....................10
7. Meyvələrdə üç meyvə var ....................12
8. Aman yar ....................13
9. Aman kəklik əlindən ....................14
10. O xal nə xaldır ....................15
11. Yarım çıxdı qabaqdan ....................16
12. Əsmə, badi-səba ....................17
13. Günahım nədir ....................18
14. Araz üstə, düz üstə ....................19
15. Bax, bax ....................19
16. Dağda bitər lalələr ....................20
17. Dərdin alım ....................21
18. Yaxan düymələ ....................22
19. Can qurban eylər ....................22
20. Qarabağda bir dənəsən ....................23
21. Qadan alım, ay qaragöz ....................24
22. Bahar oldu ....................25
23. Ay loylu ....................26
24. Bizə gəl ....................27
25. Zülfün dara ....................27
26. Dara zülfün ....................28
27. Yar, neylədim sənə ....................29
28. Bülbüllər oxur ....................30
29. Qaşın arasında xalın ....................31
30. Şeyda xanım ....................32
31. Laylay ....................33
32. Bir ala gözlü yar ....................34
33. Bəli, bəli, can ....................35
34. Sona xanım ....................36
35. Yadıma sən düşəndə ....................37
36. Gəlirəm, gedirəm xəbərin olsun ....................38
37. Qalada yatmış idim ....................38
38. Nə baxırsan yanı-yanı ....................39
39. Xoş gəldin ....................40
40. Xoş getdin ....................41
41. Ay mübarək ....................42
42. Getmə bulaq başına ....................43
43. Əs, ey gilavar ....................44
44. Boyuna qurban ....................45
45. Gəlmişik ....................46
46. Bu gecə ....................47
47. Toyun mübarək olsun ....................47
48. Ay yol açın, gəlin gəlir ....................48
49. Aparmağa gəlmişik ....................49
50. Nar, ey nar ....................49
51. Aşağıdan bir gəmi gəlir ....................50
52. Almanı alma, gəlin ....................51
53. Gəl al məni, yar, yar ....................52
54. Əzmə, əzmə tağları ....................53
55. Xınayaxdı havası ....................54
56. Həsiri basma ....................54

57. Yelpazə ....................................................................................................55
58. Aşıq balanı ...............................................................................................56
59. Na-na-nay....................................................................................................57
60. Əylən, gəlin ...............................................................................................58
61. Əsmə, səba yelləri .......................................................................................58
62. Nar, nar, nargilə...........................................................................................59
63. Gəldim.........................................................................................................60
64. Ay sona ......................................................................................................60
65. Bağçası, barı...............................................................................................61
66. Ney şikəstəsi ...............................................................................................62
67. Evləri Tərtər üstə .........................................................................................63
68. Qadan alım ..................................................................................................63
69. Nar atdılar ...................................................................................................64
70. Halay ..........................................................................................................65
71. A dağlar ......................................................................................................66
72. Kimin yarısan...............................................................................................67
73. Can gülüm, can-can .....................................................................................68
74. Ay nənəm də qurban.......................................................................................68
75. Gülbaşmaq ..................................................................................................69
76. Dəsmal........................................................................................................70
77. Su gəldi.......................................................................................................71
78. İki alma ......................................................................................................72
79. Piyada Koroğlu ............................................................................................73
80. Yeri, yeri.....................................................................................................74
81. Həyətləri soğanlıq ........................................................................................75
82. Ay uca dağların başında ................................................................................76
83. Gəmi bənd olur.............................................................................................77
84. Qapıda duran mənəm, mən ............................................................................78
85. Gəl, gəl, ay ellər gözəli..................................................................................79
86. Yeri, nazənin................................................................................................80
87. Kaş ki, pis gün olmuyaydı..............................................................................80
88. Gəlinlər........................................................................................................81
89. Can vermə qəmi-eşqə ....................................................................................82
90. Ağ dəvə yüklənibdir ......................................................................................83
91. Yarım qəşəngi ..............................................................................................83
92. Salma gözdən məni........................................................................................84
93. Atlandım Nərman ilə .....................................................................................85
94. Ağlama, balam .............................................................................................86
95. Haray, mən ölləm ..........................................................................................87
96. Gedərəm Elxana ...........................................................................................88
97. Leylacan.......................................................................................................89
98. Leylan ..........................................................................................................90
99. Uca dağ başında.............................................................................................91
100. Nəzir eyləmişəm...........................................................................................92
101. Oyan, oyan ..................................................................................................93
102. Mürsəl.........................................................................................................93
103. Bazarda kişmiş.............................................................................................94
104. Qaragözlü nigarım var...................................................................................95
105. Gəl görüm ...................................................................................................96
106. Bazarda bal var, laylay .................................................................................97
107. Yad aldı məni ..............................................................................................98
108. Necə qıydın .................................................................................................99
109. Tirmə şalım .................................................................................................99
110. Ey bivəfa yar, səni .......................................................................................100
111. Ay sarısaç ...................................................................................................101
112. Haray naşı əlindən .......................................................................................102
113. Ayrı düşdüm ................................................................................................103
114. Namərd oğlan ..............................................................................................103
115. Canlar içindəki canım....................................................................................104

116. İstəkanın deşilsin ....................105
117. Boynunda var sarılıq ....................106
118. Hüsnü bağında ....................107
119. Qarabağın yollarına düşəydim....................108
120. Ölürəm, ay ellər qızı ....................109
121. Pinəçi mənəm....................110
122. Məni dövri-fələk qoymuş ....................111
123. Sevgili yar ....................112
124. Abı-yaşıla bürünür ....................113
125. Yaqut yəməni neylər....................113
126. Tiflisin yolları....................114
127. Mən gedirəm Zəngilana ....................115
128. Qızım ....................116
129. Gəlmədin, yar....................116
130. Gəl məni aldatma....................117
131. Qaşın arasında....................118
132. Qızılgül ....................119
133. Aranda qaldım ....................120
134. Ellərə də ver....................120
135. Könlüm elə pünhandır ....................121
136. Altımda madyan....................122
137. Budur, bir cüt qara göz ....................123
138. Yenə, yarəb....................124
139. Dilbər....................125

---

**AZƏRBAYCAN XALQ MAHNILARI**

II CİLD

"Öndər nəşriyyat"

Bakı-2005

Buraxılışa məsul: *Əziz Güləliyev*

Rəssam: *Mir-Teymur*

Notoqrafika: *Xanlar Novruzov*

Kompyuter dizaynı: *Emin İbrahimov*
*Rəvan Mürsəlov*

Korrektorlar: *Nərmin Qaralova*
*Həbibə Məmmədova*
*Pərinaz Səmədova*

Yığılmağa verilmişdir 14.12.2004. Çapa imzalanmışdır 01.07.2005.
Formatı 60x84 $^{1}/_{8}$. Fiziki çap vərəqi 16. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 175.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.